***Tərtər rayonu, Şıxarx qəsəbəsi. Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədovun növbəti səyyar qəbulu bu qəsəbədə nəzərdə tutulmuşdu. Elə düşündük ki, həmişə olduğu kimi, bu dəfə də səyyar görüş ya qəsəbə klubunda, ya orta məktəbin iclas salonunda, ya da mərkəzi meydanda keçiriləcək. Ancaq belə olmadı. İcra başçısının maşını qəsəbəni keçdi, torpaq yola düşdü, taxıl biçini aparılan sahələrə doğru getdi. Sözün düzü, bu məni, xüsusilə səyyar qəbula gələn müxtəlif idarə, müəssisə və təşkilat rəhbərlərini əsla təəccübləndirmədi. Görünür, onlar belə qəfil marşurutlara bir növ adət etmişlər.***

# Tərtər: çörək ətri, taxıl zəmisi, bir də güllə səsi

## Söhbət rayonun cəbhə xəttində yerləşən kəndlərində taxıl biçinindən gedir



Taxıl biçini aparılan sahələrin kənarında, iri ağacların kölgəsində xeyli adam yığışmışdı. Səyyar qəbul da elə burada, taxılçıların qısa müddət çəkən istirahət vaxtında keçirildi. İşin qızğın çağı olduğundanmı, vaxt azlığındanmı, ya nədənsə, bu görüş uzun çəkmədi. İstər icra başçısı Müstəqim Məmmədovun qısa giriş sözündə, istərsə də icra başçısının Şıxarx qəsəbəsi üzrə nümayəndəsi Mübariz Cabbarovun, fermerlərdən Məmməd Fərzəliyevin, Əzim İsmayılovun, Əli Rəhimovun, Elşad İsmayılovun və başqalarının çıxışlarında məqsəd və istiqamət belə idi: cəbhə xəttində, düşmənin, necə deyərlər, ikiaddımlığında yerləşən bu sahələrdə taxıl biçinini mümkün qədər tez və itki-siz başa çatdırmaq lazımdır.

Əvvəla, ona görə ki, bu dağətəyi zonada havalara bel bağlamaq olmaz. Deməli, əlverişli keçən hər dəqiqənin qədrini bilmək vacibdir. İkinci tərəfdən, erməni quldurları həmişə belə vaxtlarda – əkin-biçin zamanı daha da fəallaşır, atəşkəs rejiminin tələbləri hər gün pozulur. Taxıl sahələri isə çox yerlərdə güllə məsafəsindədir. Elə ona görə də icra başçısı cəbhə xəttində yaşayan, işləyən bu insanların yanına, necə deyərlər, əliboş gəlməmişdi. Çox çəkmədi ki, qarşıdakı döngədə 2 taxılbiçən kombayn və yük maşınları göründü. Onlar Şıxarx taxılçılarına köməyə gəlirdilər.

Şıxarx Dağlıq Qarabağın əlimizdə olan ən böyük yaşayış məntəqələrindən biridir. Azərbaycan Silahlı Qüvvələri bu bərəkətli torpaqları öz əsl sahiblərinə qaytardıqdan sonra bir müddət bu yerlər boş və kimsəsiz qaldı. Daha doğrusu, dağılmış, yandırılmış evlərin bərpası və yenidən tikilməsi, müasir infrastrukturun yaradılması üçün vaxt lazım idi. Axı burada bir ev belə salamat qalmamışdı. Partladılmış yollar, körpülər yararsız hala düşmüş müxtəlif markalı döyüş texnikası ağır döyüşlər getdiyindən xəbər verirdi.

İndi isə Şıxarxda 190 ailə, 476 nəfər yaşayır. Burada yerli Tərtər sakinləri ilə yanaşı, Ağdam, Laçın, Kəlbəcər və başqa rayonlardan köçkün düşmüş soydaşlarımız da məskunlaşıb. Son illər Tərtərin cəbhə xəttində yerləşən bütün yaşayış məntəqələrinə, o cümlədən Şıxarxa diqqət və qayğı daha da artmış, sakinlərin sosial problemləri diqqət mərkəzində saxlanılmış, bir sıra vacib infrastruktur layihələri həyata keçirilmişdir. Düşmənlə üz-üzə dayanan şıxarxlılar, əsasən, əkinçilik və heyvandarlıqla məşğul olurlar. Onlar bu il 1056 hektarda buğda, 60 hektarda arpa, 76 hektarda pambıq və s. yetişdirmişlər. Son günlər havalar biçin üçün olduqca əlverişli keçir. Qabaqcıl fermerlərin sözlərinə görə, onlar biçini bu gün-sabah başa çatdıracaqlar. Hələlik məhsuldarlıq hər hektardan 33 sentner təşkil edir. Dəmyə torpaqlar üçün bu, əlbəttə, yaxşı nəticədir.

İndi Şıxarx qəsəbəsi, sözün əsl mənasında, tikinti meydançasını xatırladır. Qaçqın və məcburi köçkün ailələri üçün ən böyük şəhərcik burada tikilir. Hazırda 34 binadan ibarət dördmərtəbəli yaşayış evlərində, 1300 yerlik orta məktəbdə, 280 yerlik uşaq bağçasında, 120 yerlik uşaq musiqi məktəbində son tamamlama işləri görülür. Yeni şəhərcikdə 1170 ailə yaşayacaqdır. Bir sözlə, Şıxarxın yeni həyatı bax, belə başlayır.

Tərtərin cəbhə xəttində yerləşən Qapanlı, Qazyan, Hüsənli, Həsənqaya, Borsunlu və başqa kəndlərinə səfərimizi davam etdiririk. Ümumiyyətlə, yeri gəlmişkən, qeyd edək ki, cəbhə xətti rayonun 48 kilometr ərazisindən keçir. Tərtər Rayon İcra Hakimiyyəti başçısının Yuxarı Qapanlı kəndi üzrə nümayəndəsi Azər Cabbarovun bizə verdiyi arayışda oxuyuruq: Cari təsərrüfat ilində 56 hektarda buğda, 79 hektarda arpa, 159 hektarda çuğundur, 500 hektarda pambıq və s. yetişdirilir. O da fərəhlidir ki, hələlik əldə edilmiş nəticələr əvvəlki illərlə müqayisədə xeyli yüksəkdir. Məsələn, taxıl sahələrinin hər hektarından 35 sentner məhsul əldə edilmişdir.

**Biz qabaqcıl fermerlərdən Zabil Quliyevin əkin sahələrində olduq. Burada taxıl biçini artıq başa çatdırılmışdır. Söhbət zamanı o öz göstəricilərindən daha çox kombaynçı Siyavuş Əliyevin fədakar işindən danışdı:**

– Gecə vaxtı biçin aparmaq sizə asan gəlməsin. Özü də işıqsız-filansız. Bununla bərabər, bir sünbül də itkiyə getmədi. Biçini də nəzərdə tutulmuş müddətdə yekunlaşdırdıq. Erməni tərəfin məkirli və namərd hərəkətləri, atəşkəs rejiminin, demək olar ki, hər gün pozulması işimizə mane ola bilmədi. Yetişdirdiyimiz məhsulun hamısını vaxtında anbarlara yığa bildik. İndi pambıq, çuğundur sahələrində becərmə işləri davam edir. Sahələrin hazırkı vəziyyəti, təcrübəli mütəxəssislərin müşahidələri onu deməyə əsas verir ki, bu il məhsulumuz daha çox olacaq. Bu isə biz kənd əməkçilərinin xoş güzəranı, bol qazancı, firavan həyatı deməkdir.

Əskipara kənd sakinləri bu il 176 hektarda buğda, 151 hektarda pambıq, 60 hektarda arpa, 25 hektarda çuğundur əkib-becərmişlər. Burda da taxıl biçinini yekunlaşdırmışlar. Orta məhsuldarlıq isə belədir: hər hektardan 32 sentner. Fermer Famil Muradov deyir ki, qoy düşmən tərəfi, nəhayət, dərk etsin ki, biz öz ata-baba torpaqlarımızda yaşayırıq. Hər hansı təxribat, hücum və atışma bizi qorxuda bilməz. Digər tərəfdən, biz öz silahlı qüvvələrimizə möhkəm inanırıq. Elə son günləri götürək. Dəfələrlə atəşkəs rejiminin tələbləri pozulub, əkin-biçin sahələri atəşə tutulub. Ancaq elə həmin an da düşmən sarsıdıcı cavab alıb, geri çəkilməyə məcbur olub.

Bol məhsul istehsalı üçün suvarma suyu ilə təminat vacib şərtdir. Buil-ki quraqlıq, digər tərəfdən, erməni tərəfinin Sərsəng Su Anbarında yaratdığı fitnəkarlıqla bağlı Tərtərdə vəziyyət xeyli ağırlaşmışdı. Buna baxmayaraq, müxtəlif alternativ vasitələrlə gərgin vəziyyət aradan qaldırılmış, kənd təsərrüfatı məhsulları istehsalçıları sudan korluq çəkməmişlər.

**Rayon subartezian quyularının istismarı idarəsinin rəisi Əli Əliyev bu barədə danışarkən dedi:**

– Məlum hadisələrdən sonra təsərrüfat suyu sarıdan ən çox əziyyət çəkən rayon Tərtərdir. Ona görə ki, bizim əsas su mənbəyimiz olan Sərsəng hələ də düşmən əlindədir. Deməli, ağırlıq subartezian quyularının üzərinə düşür. Heç də təsadüfi deyildir ki, son illər məhz bu ehtiyacı nəzərə alaraq onlarla subartezian quyusu qazılaraq istifadəyə verilmişdir. Hazırda Tərtər Subartezian Quyularının İstismarı İdarəsi rayon ərazisində yerləşən və idarənin balansında olan 489 quyunun istismarı ilə məşğul olur. Onlardan 481 ədədi saz və işlək vəziyyətdədir.

2017-ci ilin ötən ayları ərzində 86 subartezian quyusunun nasosları əsaslı təmir olunaraq işə salınmış, 7 subartezian quyusunun yararsız nasosları yenisi ilə əvəz olunmuşdur.





Subartezian quyularının xidmət etdiyi 13500 hektar əkin sahəsinin suvarılması üçün 32524 min kubmetr və əhalinin kommunal-məişət xidmətləri üçün 6700 min kubmetr su çıxarılmış, bunun üçün 15572 min kilovatt saat elektrik enerjisi işlədilmişdir. Quyuların enerji sərfiyyatının dəqiq aparılması üçün sayğaclar quraşdırılmışdır.

Ötən il rayonun müxtəlif kəndlərində yeni qazılmış 15 subartezian quyusu cari ildə balansa götürülərək istismara buraxılmışdır. Bu məqsədlə 2017-ci ildə daha 7 subartezian quyusunun qazılması nəzərdə tutulmuşdur. Bununla yanaşı, istismarda olan bütün subartezian quyuların saz və işlək vəziyyətdə olması üçün lazımi tədbirlər görül-müş, təmir və bərpa işləri vaxtında aparılmışdır. Bir sözlə, görülmüş tədbirlər onu deməyə əsas verir ki, cari ildə pambıqla yanaşı, digər kənd təsərrüfatı bitkilərinin də suvarma suyuna olan tələbatı tam ödəniləcək və yüksək məhsuldarlıq əldə olunacaqdır.




Yeri gəlmişkən, qeyd etməyə dəyər ki, son illər Tərtərdə həyatın bütün sahələrində olduğu kimi, aqrar sferada da dinamik inkişaf təmin edilmiş, ümumi məhsul istehsalı, o cümlədən hər hektarın orta məhsuldarlığı artmışdır. Bəzi xarakterik fakt və rəqəmləri yada salmaq yerinə düşərdi. Belə ki, 2017-ci ilin məhsulu üçün 9871 hektar sahədə payızlıq dənli bitkilər səpilmişdir ki, onun da 6874 hektarı buğda, 2645 hektarı dən üçün arpa, 352 hektarı yaşıl yem üçün xəsil olmuşdur.

"Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair dövlət dəstəyi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 sentyabr 2016-cı il tarixli sərəncamından irəli gələn vəzifələrin həyata keçirilməsi üçün müvafiq tədbirlər hazırlanıb həyata keçirilmişdir. 2016-cı ildə rayonda 1035 hektar pambıq əkilmiş, hər hektardan 22,5 sentner olmaqla 2334 ton məhsul yığılıb tədarük edilmişdir. 2015-ci ilə nisbətən pambığın əkin sahəsi 82,2 faiz, məhsul tədarükü 2,6 dəfə, məhsuldarlıq 38,9 faiz artmışdır.

Bu ilin məhsulu üçün emal müəssisələri ilə istehsalçılar arasında 3 min hektar sahədə pambıq əkilməsi ilə bağlı müqavilələr bağlanmışdır. Bundan başqa, 1539 hektar sahədə şəkər çuğunduru əkilmişdir. Hazırda həm pambıq, həm də çuğundur sahələrində becərmə işləri aqrotexniki qaydalara uyğun olaraq davam etdirilir. Əlavə olaraq, rayonda 267 hektar dən üçün günəbaxan, 459 hektar kartof, 416 hektar tərəvəz, 27 hektar dən üçün qarğıdalı və s. yetişdirilir. Hazırda təsərrüfatlarda 26,8 min baş iri, 70 min baş xırda mal var. İndiyədək "Aqrolizinq" yolu ilə rayona 341 baş cins iri mal verilmişdir.



Heyvandarlıq məhsulları istehsalı sürətlə artır. Məsələn, cari ilin ötən ayları ərzində 779,2 ton diri çəkidə ət, 5 min 535,6 ton süd, 2 milyon 580 ədəd yumurta istehsal edilmişdir. 2016-cı ilin müvafiq dövrünə nisbətən ət istehsalı 1,7 faiz, süd 15,2 faiz, yumurta 3,4 faiz artmışdır.

Ötən ilin ənənəvi sahə olan baramaçılığa da diqqət artırılmış, möhkəm yem bazası yaradılmışdır. Nəticədə cari ildə kümçülər 4602 kiloqram barama təhvil vermişlər ki, bu da əvvəlki ildəkindən 4,8 dəfə çoxdur. Rayonda şəkər çuğunduru istehsalı da ildən-ilə artır. Belə bir fakt xüsusilə sevindiricidir ki, 2016-cı ildə Tərtər rayonu şəkər çuğunduru istehsalına görə respublika üzrə birinci yerə çıxmışdır. Cari ildə bu sahədə işlər yaxşı təşkil edilmiş, əkin sahələri genişləndirilmişdir. Məqsəd belədir: şəkər çuğunduru istehsalını ən azı 70 min tona çatdırmalı.

Rayonda təkrar əkin aparan 144 istehsalçıya 258 min manat, 170 istehsalçıya emal müəssisələrinə satdıqları xam pambığa görə 230,1 min manat məbləğində dövlət büdcəsinin vəsaiti hesabına yardım verilmişdir. Kənd təsərrüfatı məhsulları istehsalçılarına mineral gübrələrin dəyərinin orta hesabla 70 faiz güzəştlə satılması qaydalarına uyğun olaraq 380 nəfərə 780 ton güzəştlə mineral gübrə satılmışdır.

… Cəbhə xəttindən rayon mərkəzinə qayıdırıq. Qəlbimizdə ümid də var, sevinc də, nigarançılıq da. Görüşdüyümüz, söhbət etdiyimiz sadə, mərd və cəsur insanlar– taxılçılar, pambıqçılar, kombaynçılar, suçular… bir-bir gəlib gözlərim önündən keçir. Cəbhə xətti yaxın olsa da, əkin-biçin sahələrində atəş səsləri eşidilsə də bu, onları qorxutmur, əlini işdən soyutmur. Bir tərəfindən, çörək ətri, bir tərəfindən, barıt qoxusu gələn Qarabağ torpağı bu qəhrəman insanlardan barını-bərəkətini əsirgəmir. Elin varı itkiyə yol verilmədən zəmilərdən toplanır, anbarlara daşınır.

Rayon Statistika İdarəsinə zəng vurduq. Məqsədimiz günün nəticələri ilə tanış olmaq idi. Dedilər ki, bu gün– yəni iyul ayının 6-da rayon üzrə 400 hektarın taxılı biçilib. Ümumiyyətlə, indiyə kimi 18 min ton taxıl istehsal olunmuşdur. Hədəf isə belədir: zəmilərdən 35 min ton taxıl götürməli.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***